**F O L K L O R Ş Ü N A S L I Q**

**UOT 82**
**https://doi.org/10.59849/2311-8482.2025.1.36**

**AYTƏN CƏFƏROVA***

# İLKİN MİFİK SİMVOLLAR – AŞAĞI-YUXARI, GÖY-YER
## (Naxçıvan folklor mətnləri əsasında)

*Mifoloji düşüncədə simvolik məna daşıyan və bu mənanı müasir dövrdə də yaşadan ünsürlər, elementlər vardır. Onların güclü simvolik mənaya malik olması folklor örnəkləri daxilində daha çox aydınlaşır. Folklor örnəkləri etnosun dünya, alə, yaşam, təbiət haqqındakı ilkin fikirlərinin təzahür tapdığı ən aktiv materiallardır. Məhz bu mətnlər daxilində qədim dünya insanının yaşama olan münasibəti ilk baxışda kiçik görünən, amma özündə məhz ilkin dünya ilə bağlı köklü təsəvvürləri mühafizə edən elementlər, ünsürlər mövcuddur. Onlar dərin simvolika daşıyaraq ilkin təsəvvürləri özlərində qoruyurlar. Məqalədə məhz ilkin mifik təsəvvürlərdən doğan simvollar aləminin əsas ünsürləri olan aşağı-yuxarı, göy-yer əksliklərinin folklor mətnləri daxilində daşıdığı simvolik mənalar araşdırılır, onların kəsb etdiyi mənalar örnəklər daxilində aşkara çıxarılır.*

**Açar sözlər:** *ilkin mifik simvollar, yer-göy, aşağı-yuxarı, folklor, ünsürlər, qədim türklər, simvolika, məna.*

### Giriş

İlkin mifik təfəkkürdə Yaradanın və yaradılanın əlaqəsində iştirak edən əsas istiqamətlər yuxarı-aşağı, göy-yer şəklində təqdim olunur.

Yuxarı sözü qədim türk dünyagörüşündə kökü qədimlərə qədər gedib çıxan ifadədir. Yuxarı ilə bağlı olan örnəklərin özündə də yuxarının sakral yönü ifadə olunur. İlkin janrlardan olan inanc, sınama, alqış, qarğış örnəklərində yuxarı və aşağı anlamlarının dərin köklərdən qaynaqlandığı müşahidə olunur. Yuxarıya qalxmaq, göyə qalxmaq, uçmaq kimi ifadələr canlının var olduğu mərtəbədən yuxarı mövqeyə irəliləməyi deməkdir. Yuxarıya qalxmaq heç də asan iş deyildir, yəni yuxarıya doğru getmək üçün canlının, əsasən, insanın psixoloji və fiziki olaraq müəyyən gücə sahib olması lazımdır. Prof.Ramazan Qafarlı bu barədə maraqlı fikirlər irəli sürür və Filipp Uilraytın fikirlərinə isnad edərək yazır: "İnsanların hamısı eyni fikziki cazibə qüvvəsinə malikdirlər, ona görə də yuxarıya doğru addımlamaq, aşağıya getməkdən daha çətindir. Bu, yüksəyə qalxma ilə uğur qazanma ideyaları arasında təbii assosiasiya yaratmışdır" (Qafarlı: 2015, 105).

### Əsas məzmun

Yuxarı məfhumu folklor örnəkləri içərisində üst səviyyənin kodlaşdırılmış ifadəsidir. Folklor mətnlərindəki yuxarı semantemi əsası, birincini, bəzən də ən saf, məkr, hiylə, natəmizlikdən uzaq yer kimi xarakterizə olunur. "Nəzir bulağı" (Azərbaycan folkloru antologiyası XXIII: 2012, 77) mətnində yağış diləmək mərasimi icra edən insanlar Allaha vəd etdikləri qurbanı – öküzü mətndəki sakral məkanın – Yazı düzünün yuxarı hissəsində yerləşən bulağın üstündə kəsirlər. Bulağın da məhz üst – yuxarı hissəsində mərasim icra olunur. Buradakı yuxarı ən sakral yer, məkan kimi təqdim olunur.

Müşahidə edirik ki, yuxarı semantemi, əsasən, əfsanə və rəvayət mətnlərində daha qabarıqdır. Lakin digər mətnlərdə də yuxarı semanteminin simvolik mövqeyi müşahidə olunur. Məsələn, bir atalar sözündə deyilir: "Yuxarıda yerim yox, aşağını da mən bəyənmirəm" (7). Burada yuxarı arzulanan mövqedir. Bu, tam təbiidir. Çünki insan övladı var olduğu zamandan etibarən yuxarıya doğru irəliləmək arzusunda olub. Odur ki, örnək verilən atalar sözündə də yuxarı digər bir sakral məkanla əlaqənin obrazı kimi simvollaşdırılır.

"İki bacı dağı" (El sözü, yurd yaddaşı: 2010, 30) mətnində təsviri verilən məkanın dağın yuxarısında – başında yerləşən məkanlar pir, ocaq kimi sakral mövqe daşıyır. Buradakı sakrallığa ilkin səbəb hər iki məkanın dağın lap yuxarısında – başında yerləşməsidir. Dağın yuxarısında yerləşən, görünüşü ilə iki insanı xatırladan fiqur xalq təsəvvüründə iki bacıya bənzədilir. Düşüncəyə görə, onlar iki bacı olublar və ayrı düşüblər. İldə bir dəfə ağız-ağıza yaxınlaşıb görüşürlər.

Qədim insan üçün yuxarı Tanrının – Yaradanın var olduğu məkan kimi qəbul olunub. Müasir gündə də yuxarı məkan insanın ən çarəsiz vaxtda tapındığı, üz tutduğu istiqamətdir. Yuxarı insan düşüncəsinə görə, duaların qəbul olunduğu məkan kimi səciyyələndirilir. Darda, çətində qalan insan öncə başını yuxarıya doğru qaldırıb dua edir, çarə, çıxış yolu diləyir. Bununla yanaşı, insan diləyinin gerçəkləşməsi üçün icra etdiyi ritualını da yuxarı ilə assosiasiya edir. Buradan belə nəticə alınır ki,

qədim insan yuxarını nizamlı, aşağını isə nizamsız dünya kimi qəbul edib. Bu nöqteyi-nəzərdən də günümüzdə də icra olunan rituallardakı yuxarı ilə bağlı düşüncələrdə həmin yanaşma özünü mühafizə edir. Mövsüm mərasimi ritualında da bu düşüncəyə rast gəlirik: "Yeddiləvində insanlar əllərinə qəpik, ocağın külündən və bir kiçik daş alır və özlərindən yuxarı, daha hündür yerə qoyurlar. Bu o deməkdir ki, ruzim, ağ günüm, yüngüllüyüm tez gəlsin" (Azərbaycan folkloru antologiyası XXIII: 2012, 16).

Yuxarı konsepsiyası mif mətnlərində qəhrəmanın ruzisinin ərsəyə gəlməsində yardım edən istiqamətdir. Belə ki, qəhrəman ruzisini qazanmaq üçün məhz yuxarı istiqamətə yönəlir. Buradan gələn ruzi həm də halal nemətdir. "Yalqız ağac" (Azərbaycan folkloru antologiyası XXIII: 2012, 37) əfsanə mətnində də Bəşir adlı qəhrəmanın ruzisi də məhz kəndin – Nüsnüsün yuxarı bağlarıdır.

Yuxarının sakramentallıq dərəcəsini lirik növün janrlarından olan bayatı örnəklərində də müşahidə edirik. Burada yuxarının sakramentallığı qalibiyyət, qələbə düşüncəsi daxilində ifadə olunur. Bir bayatı örnəyinə diqqət edək:

Yuxarı bağ bizimdi, haxışta,
Tənəkləri üzümdü, haxışta.
Mən növbəmi qurtardım, haxışta
İndi növbə sizindi, haxışta (Azərbaycan folkloru antologiyası XXIII: 2012, 273).

Yuxarının sakral mövqeyi bəzən qəhrəmanın çarəsizliyinə cavab tapdığı məkan kimi ona xidmət edəndə aşkarlanır. Qəhrəman əlacsız vəziyyətdə yuxarıya, sakral istiqamət funksiyası daşıyan yönə, tərəfə üz tutur. Və qəhrəmanın diləyi məhz yuxarıdan "cavablandırılır". "Yalqız ağac" mətnində ölüm-dirim mübarizəsindən qurtula bilən qız yenilməmək, düşmənə məğlub olmamaq üçün üzünü yuxarıya tutur, çarəsini yuxarıdan gözləyir: "...Çox qan itirib taqətdən düşən qız Nüsnüsün yuxarısındakı dağda bir anlığa dayanır, yarpaq kimi saralan üzünü sonsuz göylərə tutub Allahdan aman istəyir..." (Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru: 1994, 72).

Bəzən mifoloji düşüncə yuxarı-aşağı konsepsiyasını bir-birindən ayırmağa qadir deyildir. Əslində, yuxarıya zidd olaraq aşağı sakrallığın görünmədiyi, hətta demonik varlıqların yaşadığı məkan kimi xarakterizə olunmalıdır. Lakin Naxçıvandan toplanılan mətnlərin bəzilərində aşağının da yuxarı kimi qutsal mövqedə çıxış etdiyini müşahidə edirik: "Sədərəyin yanında Əjdəkan dağı var. Dağın aşağısından bir bulaq çıxır, adına Cindili bulaq deyirlər. Rəvayətə görə, bulaq yeddi ildən bir çıxır. Deyirlər, bu bulaq çox suluymuş. Əkini, bağ-bağatı onun suyuyla suvarırmışlar..." (Azərbaycan folkloru antologiyası XXIII: 2012, 45). Mətndə aşağıda mövcud olan, yerləşən bulağın sakrallığı onun bol suyu ilə insana fayda verməyindədir. Bu sakrallıq həm də aşağıda mövcud olanın – bulağın sakral yeddi rəqəmi ilə uyğunlaşdırılmasıdır. Yeddi ildən bir çıxan bulağın möcüzəsi onun bol suyunda, insanların təsərrüfatına faydası ilə nizamlanır. Və burada yeddi rəqəmi də təsadüfi bir say deyildir. Ümumən, demək yerinə düşər ki, yeddi sayı təkcə türk xalqlarının mifopoetik düşüncəsində deyil, eləcə də dünyanın qədim mədəniyyət daşıyıcısı olan xalqlarında sakral düşüncədən qaynaqlanan say mövqeyindədir. Yuxarının kosmos, aşağının xaos dünyası elementləri kimi çıxış etməsini bəzi örnəklərdə müşahidə edirik: "Bu bölgədə iki məşhur pir var. Biri Xanağa kəndinin yuxarısında, o biri Vələver kəndinin aşağısında yerləşir. Deyirlər, hər cümə axşamı Xanağa kəndindəki pirdən bir işıx çıxıb Vələverdəki pirdə yox olar" (Naxçıvan folkloru. II cild: 2011, 71).

Professor R.Qafarlı yuxarı-aşağı əksliyinin simvolikası haqqında yazarkən haqlı olaraq dini inanclardakı yuxarı-aşağı konsepsiyasını mifik dünyanın ən mühüm elementlərindən qaynaqlanan əksliklər olduğunu vurğulayır və yazır: "Dini inanclarda da yuxarı Yaradanın məskənidir, aşağı isə Onun yaratdıqlarının yerləşdiyi yerdir. Aşağıdakı bolluğun, bərəkətin, xeyirin, haqqın təminatçısı da yuxarıdır. Lakin aşağıda Yaradanın iradəsindən kənar qüvvələr də fəaliyyət göstərir və insanlar şərin artıb-çoxalmasına şərait yaratdıqda yuxarının qəzəbinə səbəb olurlar..." (Qafarlı: 2015, 107). Yuxarını çıxılmaz vəziyyətlərin açarı olan məkan kimi xarakterizə edən qədim insan aşağını da məhz həmin çıxılmaz şəraitin var olduğu məkan kimi simvollaşdırır. Bir örnəkdə bu fikir təsdiq olunur:

Aşağı baxıb fikir edincə,
Yuxarı baxıb şükür elə (Naxçıvan folkloru. II cild: 2011, 95).

Ümumiyyətlə, yuxarı-aşağı əksliyi folklor örnəklərində Yaradanın məkanı və Yaradandan uzaq məkan kimi təqdim olunur. Bu, bütün hallarda belə olmasa da, əsasən, yuxarı sakral çıxış nöqtəsi, aşağı isə şərin yaşadığı məkan kimi simvolizə edilir. Bəzi hallarda isə aşağı da yuxarı kimi şər-böhtandan uzaq məkan simvolikası ilə çıxış edir. Bu da qədim insanın hər iki istiqamət modelini xeyirlə, uğurla formalaşdırmaq arzusundan qaynaqlanır.

Göy-yer. Folklorşünas Ramazan Qafarlının göy və yer mifik simvolları ilə bağlı diqqətçəkən

izahı vardır: "...Ulu əcdadın ilkin təsəvvürlərində bütün yaranışların kökü göylə bağlanır. İlahi qüvvələrin qarşılaşması, təbii fəlakətlərin mənbəyi, bolluğun-bərəkətin artmasının səbəbləri, ilin zaman bölgülərində təbii şəraitin dəyişmələri, gecənin gündüzlə, isti havaların soyuqla əvəzlənmələri – bütün funksiyalar yer üzünə səmadan keçir, hər şey yuxarıdan (göydən – A.C.) idarə olunur, insanların aşağıda – yer üstündə fəaliyyəti, yaşamaq uğrunda mübarizəsi xeyirlə şər qarşılaşmasının nəticələri kimi götürülür. Azərbaycan folklorunda göylə əlaqələndirilən təsvirlərdə "göy üzünün" görüntüləri və kainat cisimlərinin keyfiyyətcə başqalaşması özünə yer alır" (Qafarlı: 2015, 108). Göy-yer qarşıdurması Naxçıvan folklor örnəklərində kiçik janr örnəklərindən olan tapmacalarda aktiv mövqedədir:

Göydə doğular,
Yerdə boğular (yağış); (Azərbaycan folkloru antologiyası XXIII: 2012, 123).
Göydən gələn dərvişlər,
Kürkün yerə sərmişlər,
O qədər oynamışlar,
Xurd-xəşil düşmüşlər (qar) (Azərbaycan folkloru antologiyası XXIII: 2012, 124).
Göydən gəlir hənir-hənir,
Yerə düşür, diyirlənir.
Vur başına, otur gəmir (cəviz) (Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru: 1994, 303).

Örnək verilən ilk iki tapmacanın açması, cavabı göylə bağlıdır. Və hər iki örnəkdə də göy yetirən, gətirəndir. Göy bəxş edəndir. Birinci örnəkdə göyün "doğurmağına" qarşı yer "boğandır". İkincidə də "göydən gələnlər" yerdə itirilir. Yağış və qarı yetirən göyün məhsulunu yer udur, mənimsəyir. Açması "cəviz" olan üçüncü tapmacada da göy-yer əlaqəsi təqdim edilir: göydən gələnin yerdə qəbul edilməsi təbii prosesdir. Əvvəlki tapmacaların təzadlı şəkildə formalaşmasında da qədim insanın göy-yer əksliyi ilə bağlı düşüncəsi dayanır. Əbəs yerə deyildir ki, bu gün dildə aktiv işlənən bir deyimdə də göy-yer qarşıdurması ön plandadır: "Göydən nə gəldi ki, yer qəbul etmədi?!" (6). Göy yetirəndir, göndərəndir. Göydən gələn uğur da olar, bəla da. "Göydən min bir bəla yensin, Üstünnən əl götürməsin" (Naxçıvan folkloru. II cild: 2011, 85) poetik şəkilli qarğış örnəyində göyün bəla vermək, göndərmək funksiyası simvolikləşdirilib. Deməli, göy elə yaradılıb ki, onun verdiyini, doğurduğunu yer qəbul etmək məcburiyyətindədir. Hətta bu, bəla olsa da. Göyün göndərdiyini yerin qəbul etməsi, bir növ, udması, tədricən taraz halını alan hadisəyə çevrilib. Bu, folklor örnəklərində daha aydın təqdim olunur. Lakin qədim təsəvvürlərdə göyün yerlə tarazlanmaması, xalq dili ilə desək, yola getməməsi düşünülürdü. Lakin tədricən göy və yer tarazlığının zərurəti yarandı. Bu zərurət də poetik şəkildə sözlü mədəniyyətə köçürüldü, yəni folklorlaşdı. Göy-Yer tarazlığı qədim insan təfəkküründə dünyanın davam etməsi idi. Bu düşüncə sözlü mədəniyyətə də transformasiya olunub: "Xudavəndi-aləm Yeri-Göyü yaradır. Amma Yer-Göy taraz olmur – Yer yerdə, Göy göydə durmur. İlahidən səda gəlir: - Ey Qələm, yaz: "Allah!". Qələm yazır: "Allah". Yer-Göy yenə taraz olmur. İlahidən səda gəlir: "Ey Qələm, yaz "Allah! Məhəmməd!". Qələm yazır: "Allah! Məhəmməd!". Yazan kimi Yer-Göy taraz olur. Yer yerdə durur, Göy göydə" (Azərbaycan folkloru antologiyası XXIII: 2012, 12). Mətnin dünyanın yaranması haqqındakı qədim türk təfəkkürünün məhsulu olan dastanların izlərindən yaranması inkaredilməzdir, lakin islami nöqteyi-nəzərdən əlavələrin varlığı aydındır. Hər halda, mətnin əsas ideyasında dayanan, dünyanın yaranmasında əsas olan Göy və Yerlə bağlı olan ilkin mifik düşüncə qabarıqdır.

Göyün yaradıcı, doğuran olduğu düşüncəsi Tanrının, Yaradanın da göydə olması inancını formalaşdırıb. İnsan belə düşünür ki, Tanrı yeri göydən idarə edir. Bu düşüncəni sözlü mədəniyyət faktı olan folklor mətni də özündə mühafizə edir. Naxçıvandan toplanmış "Qırxqönçə xanım" adlı nağıl mətnində Tanrının göylə əlaqəsi belə təqdim edilir: " – Qarı nənə, bilmirəm, göydə Allah, yerdə sən, bu səfər nə təhər olmuş olsa, o oğlanı yox eləməlisən" (Azərbaycan nağılları. Naxçıvan: 2005, 17).

Bəzən göy insanın çarəsinə dərman olan obyekt kimi simvollaşdırılır və bu simvoliklik "göydə uçan durnalar", "göydə uçan sonalar" kimi müraciətdə yer alır. Göydə uçan göy qədər sakrallaşır. Göy qoşalaşdığı elementi də özü qədər saflaşdırır, ona qutsallıq qazandırır. Burada göyün saflıq funksiyasının simvolikası izlənilir:

Göydə uçan sonalar,
Bir-birinə yan alar.

Oğlu ölən analar,
Nalə çəkib saç yolar (Şərur folkloru: 2016, 237).

İnsanın qəminin, kədərinin alovu göylərə dayananda bayatı çəkər, bayatı ilə dərdini ifadə edər. Dərdinin ən yüksək həddinə göydəki bulud da ağlayar:

Göydə buludam səni,
Sərəm qurudam səni.
Bəlkə öləm qurtaram,
Onda unudam səni (Şərur folkloru: 2016, 251).

Və ya:

Göydə bulud dolandı,
Səsə dünya oyandı.
Arxanca mən su səpdim,
Səpdiyim su da yandı (Şərur folkloru: 2016, 252).

Qeyd edilən kimi, göyün sakrallığı onda var olanın, onunla assosiasiya olanı da sakrallaşdırır. Durna göydə uçur, göylə əlaqədədir. Göy kimi durna da sakral mahiyyət daşıyır. Qədim insan təfəkküründə göy Tanrı və insan arasındakı əlaqə vasitəsi idi. Göydə uçan durna da bu əlaqədə iştirak edən obyekt kimi simvollaşıb, qutsal mövqe qazanıb. Bu qutsallıq bir inanc örnəyində belə təqdim olunur: "Göydən durna qatarı köçəndə daşa toxunmazlar, səfləri pozular" (Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru: 1994, 59). Göyün səsi, sədası insana yetişəndə qədim insan bunu Tanrıdan gələn bir ismarıc kimi qəbul edib. Göyün səsi "gurultu" təqlidi sözü ilə ifadə olunur. Göy gurultusu insanda psixoloji olaraq bir tərpəniş duyğusu, oyanma yaradır. Və beləliklə, göy gurultusu – göyün səsi də qutsal funksiya daşıyaraq simvollaşır: "Yazağzı göy guruldayanda toyuğun üstünə bir avış torpax atsan, toyux yaxşı kürt yatar, deyərlər" və ya "Yazağzı göy guruldamasa, per-pencər yeməh olmaz, deyərlər" (Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru: 1994, 62). İnanclardan da göründüyü kimi, göyün səsi – göyün gurultusu qədim insan təfəkküründə Tanrının ismarıcını xarakterizə edərək simvolik mahiyyət kəsb edir. Bu nöqteyi-nəzərdən xalq arasında göyün gurutusu insaniləşdirilib, obrazlaşdırılaraq "Gur-gur baba" mifoloji obrazının yaranmasını şərtləndirib. Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda "Gur-gur baba" mifoloji obrazının poetikləşdiyi inanc, bayatı və digər folklor örnəkləri mövcuddur. Xalq inancına görə, Gur-Gur Baba göylərdə yaşayır. İldırım çaxmasını, leysan yağışı, sel gəlməyini məhz Gur-Gur Baba "törədir".

Göyün qədim türk təfəkküründə doğuran, yaradan, var edən – ana funksiyası daşıdığı da məlumdur. Qədim təfəkkürdən irəli gələn düşüncələrə görə, göydən gələn sakral funksiya daşıyır. Və bu sakrallıq da zaman-zaman ya yerdə formalaşır, təkmilləşir, ya da tamamilə yer tərəfindən udulur, itirilir. Bəzən isə göydən gələni yer daha da "kamilləşdirir", beləliklə, göydən gələn, sakrallığın ən yüksək mövqeyinə çatır. Yerdə müqəddəs obyektə çevrilir. "Qara daş ocağı" adlı mətndə Qara daş ocağının ziyarətgaha çevrilməsinin təsviri verilir. Ocağa ziyarətə gələnlər arzularının qəbul olmasını diləyir və ocağa nəzir deyirlər. Ocağa deyilən nəzirin qayıtmamasına, yəni niyyətin hasil olacağına inam da vardır. Ocağın quruluşu mətndə belə təsvir olunur: "...Daşın ətrafında bir neçə kiçik ölçülü daşlar düzülmüşdür. Əfsanəyə görə, iri qaya daşlar göydən gəlmiş ana, kiçik daşlar isə onun övladlarıdır. Ona görə də ocağa ancaq qadınlar və uşaqlar girə bilir. Kişilərin ocağa girməsi qadağandır" (Azərbaycan folkloru antologiyası XXIII: 2012, 75). Mətndən göründüyü kimi, böyük və kiçik daşların ana və uşağa bənzədilməsindəki əsas səbəb göylə bağlıdır. Və daşların göydən gəldiyi düşünülürsə, onların məhz anaya, kiçik daşların isə övlada bənzədilməsi mütləq tələb yaradır.

Göyün Yaradanla əlaqəsi haqqdındakı düşüncə bir nağıl mətnində də öz əksini tapır: "Devlərin vuruşu göylərə xoş getmir. Hər iki devi Tanrı daşa döndərir" (Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru: 1994, 77). Nağıl örnəyindən götürülən bu hissədə Yaradanla, Tanrı ilə göyün əlaqəsi haqqında düşüncə aydın şəkildə əks olunur. Deməli, düşüncə belədir ki, Yaradana edilən dua zamanı insan göyə üz tutursa, yerdəki xoşagəlməyən işlər də məhz göyün vasitəsilə Yaradana yetir.

Naxçıvan folklor mətnlərində Göy – Göy çadır obrazı ilə də əvəzlənir. Hər nəsnənin, hər varlığın yiyəsi, əyəsi olduğuna inanan qədim insan Göy çadırın yiyəsi, sahibinin Tanrı, Yaradan olduğunu düşünür. Bir alqış örnəyi də bunu təsdiq edir: "Göy çadırın yəəsi dadaa yetsin" (Naxçıvan folkloru. II cild: 2011, 81).

Göyün qarşılığında yerin sakrallığı nisbətən zəifdir. Bu, folklor örnəklərində də belə təsvir olunur. Yəni göy nə qədər güclü və sakraldırsa, yer sakral olsa da onun qarşılığında zəifdir. Qeyd edilən kimi, yerin sakrallığı isə hər halda itmir. Sevgilisi ilə görüşərkən atasından gizlənən qız onu

gizlətməsi üçün söyüdə yalvaranda söyüd budaqlarını yerə vurarkən qızı və sevgilsini görünməz edir. “O vaxtdan salxım söyüdün budaxları göyə qalxmır, yerə sarı uzanır” (Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru: 1994, 91). Mifoloji səviyyədə göydən gələn hər nə varsa qəbul edən yer həm də gizlədən, qoruyandır. Buradakı gizlənmə təkcə yaşınma, qorunma deyildir, həm də yerdəyişmə, statusdəyişmədir. Və bu statusdəyişmə də məhz yerin sakral gücü ilə icra olunur. Məkandəyişdirmə funksiyası daşımaq da yer üçün əsasdır. Çünki insan məkanını yerlə əlaqəsi zamanı dəyişir, xalq dili ilə desək, yerə girir. Elə qarğış örnəklərində də bu düşüncə öz əksini tapır: “Yerə girəsən”, “Səni qara yer oğurlasın”, “Yerin tərkinə keçəsən”, “Yer dombaldasan” (6) və s.

**Nəticə**

Mifopoetik düşüncədə göyün və yerin dünyanın yaranmasının əsas ünsürləri, hətta dünyanın var olmasında əsas istiqamət kimi qəbul edilməsi folklor örnəklərində də göy və yerin simvolik yer tutmasını şərtləndirib. Naxçıvandan toplanmış folklor örnəklərinin əksəriyyətində göy və yer yaradılışın əsasını təşkil edən ilkin mifik simvollar kimi təqdim olunur. Bu örnəklərdə göy Yaradanla insan arasında əsas əlaqə vasitəsi düşüncəsindən qaynaqlanaraq təsvir edilir.Yer isə göyün göndərdiyini, göydən gələni qəbul edəndir. Bu qəbul etmə isə yerdəyişmə, statusdəyişmə aktı ilə də simvollaşdırılır. Ərazidən toplanmış folklor mətnlərində göy və yer münasibətləri həm təzad, həm də uyğunluq şəklində simvollaşdırılıb.

## ƏDƏBİYYAT


1. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. Bakı. - Sabah, - 1994, - 388 s.
2. Azərbaycan folkloru antologiyası. XXIII say. Naxçıvan örnəkləri. 2-ci cild. Bakı. - 2012, - Elm və təhsil, - 332 s.
3. Azərbaycan nağılları. Naxçıvan. I cild. Bakı. – Nurlan, - 2005, - 296 s.
4. El sözü, yurd yaddaşı. Folklor toplusu. Bakı. - Elm, - 2010, - 168 s.
5. Qafarlı R. Mifologiya. Mifogenez: rekonstruksiya, struktur, poetika. 6 cilddə. I cild. Bakı. - Elm və təhsil, - 2015, - 454 s.
6. Mənbə verilməyənlər müəllifin şəxsi arxivindəndir.
7. Naxçıvan folkloru. II cild. Naxçıvan.- Əcəmi, - 2011, - 496 s.
8. Şərur folklor örnəkləri. I kitab. Bakı. - Elm və təhsil, - 2016, - 348 s.



***AMEA Naxçıvan Bölməsi**
***fil.ü.f.d, dosent Aytən Cəfərova***
***E-mail: ceferli_ayten@ mail.ru***

**Aytan Jafarova**


## PRIMARY MYTHICAL SYMBOLS – DOWN-UP, SKY-EARTH
## (Based on Nakhchivan folklore texts)


In mythological thought, there are elements that carry symbolic meaning and keep this meaning alive in the modern era. Their strong symbolic meaning becomes more evident within folklore examples. Folklore examples are the most active materials in which the initial ideas of the ethnos about the world, the world, life, and nature are manifested. It is within these texts that the attitude of the ancient world man to life appears small at first glance, but in itself there are elements that preserve the deep-rooted ideas about the primary world. They carry deep symbolism and preserve the primary ideas within themselves. The article examines the symbolic meanings of the oppositions of down-up, sky-earth, which are the main elements of the world of symbols arising from the primary mythical ideas, within folklore texts, and the meanings they acquire are revealed within the examples.



**Keywords:** *primary mythical symbols, earth-sky, up-down, folklore, elements, ancient Turks, symbolism, meaning.*

**Айтан Джафарова**

## РАННИЕ МИФИЧЕСКИЕ СИМВОЛЫ – НИЗ-ВВЕРХ, НЕБО-ЗЕМЛЯ
## (На основе Нахчыванских фольклорных текстов)

В мифологической мысли есть элементы, несущие символическое значение и сохраняющие это значение в наше время. Их сильное символическое значение становится еще яснее на примерах фольклора. Фольклорные образцы являются наиболее активным материалом, в котором проявляются изначальные представления этноса о мире, вселенной, жизни, природе. Именно в этих текстах отражено отношение древнего мира к жизни, на первый взгляд незначительное, но в них сохраняются глубоко укоренившиеся представления о изначальном мире. Они несут в себе глубокую символику и сохраняют оригинальные идеи. В статье рассматриваются символические значения оппозиций верха и низа, неба и земли, которые являются основными элементами мира символов, возникших из первичных мифических представлений, в фольклорных текстах, а также на примерах раскрываются приобретаемые ими значения.

**Ключевые слова:** *первичные мифические символы, земля-небо, верх-низ, фольклор, стихии, древние тюрки, символика, значение.*

*Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 10.01.2025**
**Son daxilolma tarixi:11.02.2025**